

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 171 (21.832)

*12 sentyabr 2017-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 11-də Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi, Siyasi Büronun üzvü, Vyetnam KP MK-nın xalq kütlələri ilə iş şöbəsinin müdiri xanım Çionq Txi Mayın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Sentyabrın 11-də dövlətimizin başçısı Bakının Səbail rayonunun Badamdar qəsəbəsindəki 239 nömrəli tam orta məktəbin binasında əsaslı təmir və yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub.

* * *

Həmin gün Səbail rayonunun 20-ci Yaşayış sahəsindəki 162 nömrəli tam orta məktəbin binası yenidənqurmadan sonra istifadəyə verilib. Prezident İlham Əliyev məktəbin binasında yaradılan şəraitlə tanış olub.

* * *

Sentyabrın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Nəsimi rayonundakı 268 nömrəli xüsusi məktəbdə əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub.

## E.M.Axundovun Azərbaycan Respublikası Mərkəzi Bankı Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri təyin edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elvin Malik oğlu Axundov Azərbaycan Respublikası Mərkəzi Bankı Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 11 sentyabr 2017-ci il*

## "İstedad-XXI əsr" hazırlıq kursları üçün yeni tədris binası istifadəyə verilmişdir





Sentyabrın 11-də Naxçıvan şəhərində "İstedad-XXI əsr" hazırlıq kursları üçün yeni tədris binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, 300 şagird yerlik və 4 mərtəbəli yeni tədris binasında 2-si elektron lövhəli olmaqla 20 sinif otağı, 2 kompüter otağı, müəllimlər otağı, imtahan mərkəzi, iclas zalı, qeydiyyat və mühasibatlıq otaqları, eləcə də bufet fəaliyyət göstərir. Binada 12 kompüter quraşdırılmış və internetə qoşulmuşdur. Kursda fərdi və qrup şəklində abituriyent hazırlığı, 5-8-ci siniflər üzrə hazırlıq, dövlət qulluğuna hazırlıq, məktəbəqədər hazırlıq, ingilis, rus, alman, fransız, ispan və fars dilləri üzrə kurslar, məntiq kursları, kompüter və magistraturaya hazırlıq aparılır. Naxçıvan şəhəri ilə yanaşı, bu tədris ilindən Şərur, Ordubad, Culfa və Şahbuz rayonlarında da istedad kurslarının filialları fəaliyyət göstərir. Tədris prosesində Dövlət İmtahan Mərkəzinin proqramlarına uyğun dərs vəsaitləri və testlərdən istifadə edilir. Yay tətili dövründə isə tədris proqramına uyğun olaraq yay məktəbləri təşkil olunur, şagirdlər müxtəlif zəka təlimlərində və bilik yarışlarında iştirak edirlər. Kurs müddətində və kurs sonunda şagirdlər təcrübəli müəllimlər və psixoloqlar tərəfindən psixoloji vəziyyətin yaxşılaşması üçün seminar və treninqlərə cəlb olunurlar.

Tədris binasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamına uyğun olaraq "Oxunması zəruri olan kitablar"dan ibarət guşə yaradılmışdır.

İmtahan mərkəzində quraşdırılan müasir avadanlıqlar imkan verir ki, ümumtəhsil məktəblərində keçirilən sınaq imtahanlarının nəticələri onlayn şəkildə hər bir şagirdə fərdi iş nömrəsi vasitəsilə çatdırılsın. Həmçinin binada elektron idarəetmə proqramı mövcuddur. Hər bir filial mərkəzlə bu sistem vasitəsilə əlaqəli şəkildə fəaliyyət göstərir, eyni zamanda valideynlər övladlarının nəticələrini onlayn izləyə bilirlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov "İstedad-XXI əsr" hazırlıq kurslarının yeni tədris binasının istifadəyə verilməsi münasibətilə kursun dinləyicilərini və pedaqoji kollektivi təbrik edərək demişdir: Ölkəmizdə təhsilə qayğı və bu sahədə dönüşün yaradılması ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə mümkün olmuşdur. Ulu öndər Sovet Birliyi dövründə Azərbaycanda təhsilin səviyyəsinin yüksəldilməsi istiqamətində tədbirlər həyata keçirmiş, yaxşı oxuyan gənclər ittifaqın yüksək ali məktəblərində təhsil almağa göndərilmişdir. Məhz həmin illərdə yetişən gənclər Azərbaycan müstəqillik qazandıqdan sonra ölkəmizin inkişafında yaxından iştirak etmiş, dövlət müstəqilliyinin qorunmasına öz töhfələrini vermişlər. Bu gün təhsil alan gənclər isə müstəqil Azərbaycanın gələcək təminatçılarıdır.

Ali Məclisin Sədri dahilərin "Əgər bir ölkənin gələcəyini bilmək istəyirsənsə, onun gəncliyinə nəzər salmaq lazımdır", – fikrini xatırladaraq demişdir: Əgər gənclik təhsilli, dünyagörüşlü və vətənpərvərdirsə, onda ölkə də inkişaf edəcək, dövlət müstəqilliyi əbədi olacaqdır. Bu mənada hər bir ölkənin inkişafı, müstəqilliyinin qorunması və etibarlı gələcəyi təhsillə bağlıdır. Təhsilə qoyulan sərmayə ölkənin gələcəyinə qoyulan sərmayədir. Bu gün müstəqil Azərbaycanda təhsilin inkişafına xüsusi diqqət yetirilir, müasir tədrisin tələblərinə uyğun infrastruktur yaradılır, hərtərəfli biliyə malik, intellektli və vətənpərvər gənclər yetişdirilir, yaxşı oxuyan gənclər xaricdə ali təhsil almağa göndərilirlər. Eyni zamanda ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında orta, peşə, orta ixtisas, ali və akademik təhsil pillələri üzrə yaradılan şərait təhsil sahəsində qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetirilməsinə imkan verir.

Ali Məclisin Sədri demişdir: Təhsili inkişaf etdirməyin müxtəlif yolları vardır. Bunların içərisində orta təhsil mühüm yer tutur. Çünki təhsilin əsası orta məktəblərdə qoyulur. Şagirdlər məktəblərdə tədris proqramına uyğun biliklərə yiyələnməklə yanaşı, həm də yaradılan zəngin kitabxanalardan istifadə edərək dünyagörüşlərini formalaşdırırlar. Gənclərin hərtərəfli biliklərə malik olmasında hazırlıq kurslarının da mühüm rolu vardır. Dünya tədris sistemində qəbul olunmuş bir prinsip var: gənclər dəqiq elmləri yaxşı oxumalı, xarici dil bilməli və seçdiyi ixtisasa uyğun fənləri dərindən öyrənməlidir. Qarşıya qoyulan bu vəzifələr ümumtəhsil məktəbləri ilə yanaşı, hazırlıq kurslarında da tədrisin əsasını təşkil etməlidir. Hər bir gənc yaradılan tədris şəraitindən düzgün istifadə etməli, Ana dilini yaxşı bilməli, xarici dil öyrənməli, dəqiq elmləri və seçdiyi ixtisas üzrə fənləri yaxşı oxumalıdır. Bu gün "İstedad-XXI əsr" hazırlıq kurslarında orta məktəb bazasında hazırlıq, dövlət qulluğuna qəbul üçün hazırlıq, xarici dil öyrənmək və digər sahələr üzrə kurslar fəaliyyət göstərir. Bu da gənclərin hərtərəfli biliklərə yiyələnməsinə və dünya tədris sisteminə inteqrasiyasına imkan verəcəkdir.

Ali Məclisin Sədri demişdir: Muxtar respublikada təhsil sahəsində görülən işlər qarşıda duran əsas vəzifələrdəndir. Son illər muxtar respublikada yeni məktəb binaları tikilərək istifadəyə verilmiş, müəllimlərin diaqnostik qiymətləndirilməsi aparılmış, tədrisin hərtərəfli təşkili üçün lazımi şərait yaradılmışdır. Bu tədris ilində də muxtar respublikada yeni məktəb binaları istifadəyə veriləcəkdir. Həmçinin muxtar respublikanın bütün ümumtəhsil məktəblərində xarici dillər tədris olunur. Bu gün orta məktəbləri və hazırlıq kurslarını uğurla başa vuran gənclər istənilən ölkədə ali təhsil almaq imkanına malikdirlər. Bütün bunlar ona görə həyata keçirilir ki, biz ölkəmizin gələcəyini düşünürük. Bu gələcəyin təminatçıları olan gənclərin yaxşı təhsil almasını, dünyagörüşlü və vətənpərvər böyüməsini istəyirik. Naxçıvan Muxtar Respublikasında hər il ali məktəblərə qəbul olanların və yüksək bal toplayanların sayının artması, dövlət qulluğuna qəbulda gənclərin uğurlu nəticə göstərməsi onu deməyə əsas verir ki, artıq ölkəmizdə təhsilə göstərilən qayğı, bu sahədə yaradılan şərait öz bəhrəsini verir. "İstedad-XXI əsr" hazırlıq kursları üçün istifadəyə verilən yeni tədris binası və yaradılan şərait bu işləri daha da sürətləndirəcək, gənclər bundan sonra da hərtərəfli təhsil alaraq göstərilən etimadı doğruldacaqlar.

Ali Məclisin Sədri kollektivi bir daha təbrik etmiş, təşkilatçılara təşəkkürünü bildirmişdir.

"İstedad-XXI əsr" hazırlıq kurslarının direktoru Elbrus İsayev tədbirdə çıxış edərək demişdir ki, Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafı sahəsində həyata keçirilən tədbirlərin tərkib hissəsi olaraq 2014-2015-ci tədris ilində "İstedad-XXI əsr" hazırlıq kursları fəaliyyətə başlamışdır. Kurs təlim-tərbiyə prosesinin təşkilini, tədris materiallarının keyfiyyətlə mənimsənilməsini, şagirdlərin qabiliyyətlərinin inkişaf etdirilməsini əsas fəaliyyət istiqaməti kimi müəyyən etmişdir. Burada ali məktəblərə

*Ardı 2-ci səhifədə*





qəbul olmaq istəyən abituriyentlər üçün qrup və fərdi şəkildə dərslər təşkil olunur. Kursun fəaliyyət istiqamətlərindən biri də muxtar respublika ümumtəhsil məktəblərinin şagirdləri üçün aylıq test-sınaq imtahanlarının keçirilməsidir. Artıq kurs tərəfindən dərs vəsaitləri də çap olunur, tədris proqramının daha operativ şəkildə mənimsənilməsi diqqətdə saxlanılır. Fəaliyyət göstərdiyi dövrdə kursun məzunlarından 86-sı 500-700 arası bal toplamışdır ki, onlardan da 5-i Prezident təqaüdünə layiq görülmüşdür. 2016-2017-ci tədris ili üzrə kursu bitirən 189 məzunun hər biri ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olmuşdur.
Elbrus İsayev muxtar respublikada təhsilin hərtərəfli inkişafına göstərilən diqqət və qayğıya görə kollektiv adından minnətdarlıq etmişdir.

Tədris korpusunda fərdi qazanxana və mərkəzi soyutma sistemi quraşdırılmış, binanın həyətində abadlıq işləri aparılmışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## “Naxçıvan Avtoservis” yenidən qurulmuşdur






Muxtar respublikada insanların yaşayış səviyyəsinin yaxşılaşması tələbata uyğun yeni xidmət sahələrinin yaradılmasına və mövcud olanların fəaliyyətinin genişləndirilməsinə imkan verir. Bu sahədə görülən işlərin davamı olaraq “Naxçıvan Avtoservis” müəssisəsi əsaslı yenidənqurmadan sonra istifadəyə verilmişdir.

Sentyabrın 11-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov “Naxçıvan Avtoservis” müəssisəsində yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, müəssisədə Almaniya, İtaliya və Türkiyə mənşəli müasir avadanlıqlar quraşdırılmışdır. Binada 4 iş otağı, hamam, yeməkxana, kafe, ehtiyat hissələrinin saxlanması üçün anbar və kompressor bölməsi vardır. Burada avtomobillərə texniki baxış, bütün növ mühərriklərin təmiri, şassilərin düzəldilməsi və tənzimlənməsi, elektrik sistemlərinin təmiri, boyama və cilalama, təkərlərin 3D ölçüdə tənzimlənməsi, mühərrik və sistem yağlarının dəyişdirilməsi, səyyari təmir, mühərriklərin yuyulması və kimyəvi təmizləmə xidmətləri göstərilir. Müəssisədə eyni vaxtda 25 avtomobilə xidmət göstərmək mümkündür. Həmçinin burada ehtiyat hissələrinin satışı da təşkil olunub.

Xidmət sahəsində 20 nəfər işlə təmin olunmuşdur. Ərazidə abadlıq işləri aparılmış, müşahidə kameraları quraşdırılmış, ağac və gül kolları əkilmiş, subartezian quyusu qazılmış və transformator yarımstansiyası qoyulmuşdur.

Ali Məclisin Sədri xidmət sahəsində keyfiyyətə xüsusi diqqət yetirilməsinin vacibliyini bildirmiş, müəssisənin Şərur rayonunda filialının yaradılması, tələbata uyğun ehtiyat hissələrinin gətirilməsi və satışının həyata keçirilməsi, eləcə də mütəxəssis hazırlığı barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

*İstehsal müəssisələri*

## *“Naxçıvan məhsulları”* daxili bazarda önəmli paya sahibdir

Muxtar respublikamızda dövlət tərəfindən göstərilən maliyyə dəstəyi kiçik və orta sahibkarlığın inkişafına da böyük təkan verib. Yerli məhsulların qablaşdırılmasının müasirləşdirilməsi, keyfiyyətinin yüksəldilməsi, həmin malların xarici bazarlara çıxışı sahəsində ticarət sövdələşmələrinin aparılması, yerli brendlərin yaradılması və digər sahələrdə mövcud fəaliyyətlərin təkmilləşdirilməsi məqsədilə 2014-cü il iyun ayının 25-də “Naxçıvan Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyəti təsis edilib.

Müəssisənin iş prosesi ilə maraqlanmaq üçün ötən günlərdə burada olduq. Müəssisə rəhbəri Namiq Əhmədov bildirdi ki, muxtar respublikamızda sahibkarlara göstərilən dövlət qayğısından bu müəssisəyə də pay düşüb. Belə ki, cəmiyyətin fəaliyyətinin təmin edilməsi məqsədilə Naxçıvan şəhərində 8 min kvadratmetr torpaq sahəsi və Sahibkarlığa Kömək Fondundan güzəştli kredit ayrılıb.

Müəssisə ötən il oktyabrın 31-də fəaliyyətə başlayıb. Həmin gün açılış mərasimində iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri “Naxçıvan Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyətə başlaması münasibətilə kollektivi təbrik edərək deyib: ***“Naxçıvan Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılmasında məqsəd muxtar respublikada istehsal olunan məhsulların daxili bazarda dövriyyəsini təmin etməkdən ibarətdir. Bu gün muxtar respublikada 150-dən çox qapalı və dövlət tərəfindən təminatı həyata keçirilən müəssisələr vardır. Bu müəssisələrin ərzaq məhsulları ilə təchizatının əsas hissəsi idxal hesabına həyata keçirilirdi. Lakin “Naxçıvan Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılmasından sonra qapalı müəssisələrin təminatının idxal hesabına ödənilməsinin qarşısı alınmış, bu müəssisələrin tələbatının tamamilə yerli məhsullar hesabına ödənilməsi təmin edilmişdir”.***

Müəssisənin fəaliyyətə başladığı ötən dövr ərzində araşdırmalar aparılıb, sınaq məqsədilə bir neçə məhsul üzrə pilot layihələr icra olunub. Layihələrdə muxtar respublikada fəaliyyət göstərən kiçik istehsalçıların fəal istehsalat prosesinə cəlb edilməsi məqsədilə onlardan xammal alınaraq məhsul istehsal olunur. Bu çərçivədə kənd pendiri, çaşır və baldırğan turşusu, qablaşdırılmış bal, makaron, meyvə şirələri istehsal olunur. Quru meyvə istehsalı üçün isə avadanlıqlar alınıb gətirilib. Yaxın zamanlarda istehsala başlanılacaqdır. Bütün bunlar kiçik istehsalçı subyektlər tərəfindən istehsal olunan məhsulların iri marketlərə çıxışına imkan yaradır və satış probleminin həllinə ciddi töhfə verir.




Muxtar respublikada bir neçə süd emalı müəssisəsi var. Həmin müəssisələrdə maliyyə və texniki imkanların məhdudluğu məhsulların ticarət şəbəkələrinə çıxarılmasına çətinlik törədirdi. “Naxçıvan Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyətinin icrasına başladığı “Kənd pendiri” pilot layihəsi muxtar respublikamızda yerləşən süd emalı müəssisələrinin fasiləsiz fəaliyyət göstərməsinə əlverişli şərait yaradıb.

Müəssisə rəhbəri onu da bildirdi ki, satışa çıxarılacaq məhsulların müasir tələblərə uyğun qablaşdırılmasına da xüsusi diqqət yetirilir. Bu məqsədlə Türkiyə Respublikasının “Sezeniş Metal”, “Levent Makina” və “Umar Makina” şirkətləri ilə müqavilələr bağlanılıb, metal taralar, bağlama və kodlama avadanlıqları alınıb gətirilib. Hazır məhsulların market və ticarət şəbəkələrində müasir ticarət qaydalarına uyğun satışının təşkili üçün onlar barkodlarla təmin edilib, tədarük olunan məhsulların saxlanması və keyfiyyətinə nəzarət məqsədilə mütəmadi olaraq laboratoriya analizləri aparılır. Marketinq tədbirləri çərçivəsində “Naxçıvan Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Türkiyənin “Uğur” şirkətinin istehsalı olan soyuducular alınaraq iri marketlərdə yerləşdirilib. Bundan başqa, məhsulların ticarət obyektlərinə nəqli üçün soyuduculu avtonəqliyyat vasitələri alınıb, bu avtomobillərdə müəssisənin reklamları öz əksini tapıb. İstehsal üçün tədarük olunan və satışı həyata keçirilən məhsulların keyfiyyətli şəkildə saxlanılması məqsədilə Türkiyənin “Seral” şirkətinin istehsalı olan avadanlıqlar gətirilib quraşdırılıb.

Muxtar respublikaya xas məhsulların paytaxt Bakı şəhərinə və respublikanın digər regionlarına göndərilməsi istiqamətində işlər aparılıb. Müəssisə tərəfindən muxtar respublikanın kənd yerlərində yetişdirilən təzə ərik və qurudulan tut məhsulları tədarük olunub. Yerli məhsulların xarici bazarlara ixracı istiqamətində müxtəlif araşdırmalar aparılır. Bunun üçün muxtar respublikadan ixrac oluna biləcək perspektivli məhsullar müəyyən edilir, onların iqtisadi göstəriciləri və məhsuldarlığı araşdırılır. Bu məhsulların seçilməsində rəqabətə davamlılıq, ənənəvi və orijinal xüsusiyyətlərin olması, təbiilik və yüksək keyfiyyət kimi meyarlar əsas götürülür.

Yerli məhsulların ixracı sahəsində işlərin tez bir zamanda həyata keçməsi üçün xarici şirkətlərlə danışıqlar aparılır. Məhsullar “Aqronax” və “Pronak” əmtəə nişanları ilə bazara çıxarılır.

*“Naxçıvan Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən fəaliyyətin dolğun əks olunması, əhalinin, həmçinin iş adamlarının və firmaların müraciət və təkliflərinin təmin edilməsi üçün www.agronax.az və www.pronak.az internet saytları yaradılıb. Müəssisə kollektivi əldə edilən nailiyyətlərlə kifayətlənmir, gələcəkdə də daxili bazarı keyfiyyətli məhsullarla təmin etmək üçün səy göstərir.*

✍ **Nail ƏSGƏROV**



Təhsil millətin gələcəyidir

# Dəqiq elmlər üzrə ixtisaslaşmış liseyin ilk tədris ilinin uğurları sevindiricidir

***"Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq, hər şeydən çox, təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır"****, – deyən görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi altında ölkəmizdə müstəqillik illərində bu sahədə geniş islahatlar həyata keçirilib, Azərbaycan təhsili yeni inkişaf mərhələsinə qədəm qoyub. Həyatımızın müxtəlif sahələrindəki ixtisaslı kadrlara, gənc mütəxəssislərə olan tələbatın yerli potensial hesabına ödənilməsində bu istiqamətdə aparılan islahatlar böyük rol oynayıb. Bu gün də ulu öndərin siyasi xəttini bütün sahələrdə uğurla davam etdirən,* ***"İyirmi birinci əsrdə ölkələrin gələcəyi bilavasitə təhsilin, biliklərin səviyyəsindən asılı olacaqdır. Ona görə uşaqlarımız bilikli, savadlı olmalıdırlar, dünyada gedən yenilikləri bilməlidirlər"****, – deyən ölkə başçısı cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində təhsilin inkişafı dövlət siyasətinin prioritet istiqaməti kimi müəyyənləşdirilib. Kompleks tədbirlərin həyata keçirilməsi bu gün də uğurla davam etdirilir.*

Ümummilli liderimizin müəllifi olduğu təhsil strategiyası muxtar respublikamızda da uğurla həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı nəticəsində son illər muxtar respublikada 200-dən artıq təhsil müəssisəsi tikilib və ya əsaslı şəkildə yenidən qurulub, məktəblər ən müasir tədris avadanlıqları və informasiya-kommunikasiya texnologiyaları ilə təchiz olunub. Muxtar respublikamızda dəqiq elmlər sahəsi üzrə kadrların hazırlanması diqqətdə saxlanılıb, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 14 aprel tarixli Sərəncamı ilə Fizika-Riyaziyyat Təmayüllü Lisey yaradılıb.

Ötən il sentyabrın 15-də – Bilik Günündə Şərur şəhərində Fizika-Riyaziyyat Təmayüllü Lisey Kompleksinin açılışı olub. Açılış mərasimində Ali Məclisin Sədri deyib: ***"Vətənə, xalqa xidmətin ən yaxşı yolu mükəmməl təhsil almaqdır. Hər bir gənc bilməlidir ki, o, yaxşı təhsil almaqla, peşə öyrənməklə, ilk növbədə, ölkəmizin inkişafına öz töhfəsini vermiş olur. Ölkəmizin gələcəyi bugünkü gəncliyin təhsilə və ya peşə sahələrinə nə dərəcədə yiyələnməsindən, tariximizi, dilimizi, adət-ənənələrimizi necə öyrənməsindən, milli dəyərlərimizi hansı səviyyədə mənimsəməsindən, əsl vətəndaş kimi formalaşmasından asılıdır. Çox istərdik ki, hər bir gənc biliklərə dərindən yiyələnsin, vətənpərvər olsun, öz intellektual və yaradıcı potensialını müstəqil Azərbaycanın sosial-iqtisadi və mədəni inkişafına həsr etsin".***

Məktəbin direktoru Həbib Ələkbərov söhbət zamanı bildirdi ki, təhsil islahatları o zaman fayda verir ki, o, cəmiyyətin konkret ehtiyaclarına uyğunlaşdırılsın. Şərur şəhərindəki Fizika-Riyaziyyat Təmayüllü Lisey də bu zərurətdən yaradılıb. Muxtar respublikada texniki fənlər üzrə şagirdlərin istedad və bacarıqlarının aşkara çıxarılmasında liseyin üzərinə mühüm vəzifələr düşür. Kollektiv yaradılan şəraitdən səmərəli istifadə edir, burada müəllim-şagird münasibətləri qarşılıqlı hörmət və tələbkarlıq əsasında qurulub.

2016-2017-ci tədris ilindən fəaliyyətə başlayan liseyin VII-X siniflərinə muxtar respublika ümumtəhsil məktəblərindən qəbul aparılıb. Liseyin VII siniflərinə qəbul üçün 474 şagird müraciət edib, imtahanların nəticələrinə əsasən 54 şagird bu tədris ocağına qəbul olunub. Yeni tədris ilində liseydə 224 şagird təhsil alacaqdır. Liseyin pedaqoji kadr potensialını təmin etmək məqsədilə müxtəlif ixtisaslar üzrə sənəd təqdim etmiş müəllimlərin imtahanı keçirilib. Hazırda liseydə 33 müəllim və tərbiyəçi şagirdlərin təlim-tərbiyəsi ilə məşğul olur.

Lisey hər biri zirzəmi ilə birlikdə 5 mərtəbəli tədris və yataqxana binalarından ibarətdir. Tədris binasında 5-i elektron lövhəli olmaqla, 19 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, şahmat, 2 kompüter otağı, müəllimlər otağı, 55 yerlik akt zalı, kitabxana, arxiv və bufet vardır. Burada 42 kompüter quraşdırılıb və internetə qoşulub, kitabxanada 4184 dərslik və 2065 bədii ədəbiyyat olmaqla, 6249 kitab müəllim və şagirdlərin istifadəsinə verilib.

Direktorun sözlərinə görə, tədris ocağı muxtar respublikanın distant təhsil şəbəkəsinə qoşulub, 2 mindən artıq elektron dərsliklə təmin edilib. Elektron lövhəli sinifdə Heydər Əliyev Muzeyi ilə əlaqə yaradılıb və muxtar respublikanın 210 təhsil müəssisəsinin iştirakı ilə dərs keçilib.

273 yerlik yataqxana binasında 5 və 3 yerlik 87 yataq otağı, növbətçi, nəzarətçi, istirahət, həkim və müayinə otaqları, idman zalı, yeməkxana, mətbəx, ərzaq anbarları, bərbərxana, təsərrüfat otağı və camaşırxana vardır. Otaqların hər biri zəruri mebel avadanlıqları ilə təchiz olunub.

Liseydə şagirdlərin kompüter biliklərinin möhkəmləndirilməsi, dərsdənkənar məşğələlərin düzgün təşkili, onların muzeylərə ekskursiyalara aparılması və müəllimlərin kurslarda iştirakı təmin edilir. Pedaqoji kollektiv müasir təlim üsullarının tətbiqinə geniş yer verir, informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadəyə xüsusi diqqət yetirilir. Məktəbdə dəqiq elmlərlə yanaşı, digər fənlər də yüksək səviyyədə tədris olunur ki, bu da şagirdlərin dövlətçiliyimizə sədaqət, milli və mənəvi dəyərlərimizə, ədəbiyyatımıza, mədəniyyətimizə ehtiram ruhunda tərbiyə olunmalarında mühüm əhəmiyyət kəsb edir.

Tədris ocağında tez-tez maraqlı sinifdənxaric və məktəbdənkənar tədbirlər təşkil olunur, viktorinalar, siniflərarası bilik yarışmaları keçirilir. Tədris prosesində elektron lövhələrdən, kompüterlərdən, müasir laboratoriyalardan səmərəli istifadə olunur.

Ümummilli liderimizin hamımız üçün örnək olan həyat və siyasi fəaliyyətinin məktəblilərə dərindən öyrədilməsi diqqət mərkəzində saxlanılır. Bu istiqamətdə keçirilən tədbirlərdə şagirdlərin fəallığı təmin olunur. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, lisey ilk tədris ilini uğurla başa vurub. Belə ki, məktəbi bitirən 26 məzunun hamısı ali məktəb tələbəsi adını qazanmaq üçün keçirilən qəbul imtahanlarında bu adı daşımağın sevincini yaşayıb, onlardan 9 nəfəri 500-700 intervalında bal toplayıb, 18 tələbə muxtar respublikada fəaliyyət göstərən ali məktəblərdə təhsil almağa üstünlük veriblər.

Reyal Sərxanbəyli 655 bal toplayaraq müəllimlərinin etimadını doğruldub. Onunla və atası Fazil Sərxanbəyli ilə liseyin həyətində görüşdük.

Çöhrəsində övladının tələbə adını qazanmasından yaranan sevinc hissləri duyulan Fazil bildirdi ki, Reyal orta məktəbdə oxuyarkən dəqiq elmlərə maraq göstərirdi. Şərur şəhərində bu liseyin açılması onların ailəsini də ürəkdən sevindirib. Elə həmin ili Reyal yüksək balla liseyə qəbul olunub. Təhsil aldığı dövrdə ciddi çalışıb, müəllimlərinin bütün tapşırıqlarını yerinə yetirməyə səy göstərib. Nəticə də uğurlu olub. Reyalın da, ona dərs deyən müəllimlərin də zəhməti hədər getməyib.

Valideyn liseydə yaradılmış yüksək şəraitə görə dərin minnətdarlığını bildirdi. Reyal isə ali təhsil alacağı dövrdə də yaxşı oxuyacağını, kamil mütəxəssis kimi yetişməyə çalışacağını dilə gətirdi.

Kəngərli rayonundan olan Fərid Eyvazov da yüksək bal toplayanlar sırasındadır. Onun da sevincinin həddi-hüdudu yoxdur. Müəllimlərindən, orta təhsilini başa vurduğu liseydə yaradılmış şəraitdən xeyli razılıq edir:

– Yaşlılardan eşitdiyimə görə bu gün muxtar respublikanın orta məktəblərində yaradılmış şərait illər öncə hətta heç ali məktəblərdə də olmayıb. Bütün bunlar bizə və ölkəmizin gələcəyinə böyük qayğının ifadəsidir. Sevinirəm ki, belə qayğı hesabına mən də ali məktəbə qəbul olunmuşam. Arzum isə ali təhsilimi başa vurduqdan sonra məhz bu liseydə çalışmaqdır.

Liseyin riyaziyyat müəllimi Paşa Heydərov deyir ki, son vaxtlar məktəblilər arasında dəqiq elmlərə maraq göstərənlərin sayı xeyli artıb. Düşünürəm ki, bu, qloballaşan dünyada informasiya texnologiyalarının sürətlə həyatımıza inteqrasiyası ilə bağlıdır və belə bir məktəbin yaradılması təbiidir. Burada bərqərar edilmiş şəraitdə müəllimin pis işləməyə, şagirdin pis oxumağa haqqı yoxdur. Məhz bunun nəticəsidir ki, bu məktəbdə oxumaq istəyənlərin sayı getdikcə artır...

Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey hələ öz kövrək addımlarını atmaqdadır. Ancaq bu addımlar belə deməyə əsas verir ki, təhsil ocağı qarşıya qoyulan məqsədlərə çatmaq, zəngin təhsil ənənələri formalaşdırmaq, ölkəmizin gələcəyi üçün güclü kadr potensialı yaratmağa töhfə vermək məqsədilə mövcud şəraitdən səmərəli istifadə edir, şərəfli bir vəzifənin öhdəsindən gəlməyə çalışır. Bu yolda gələcəkdə daha böyük uğurlara imza atmaq diləyilə kollektivə bol sevinclər arzulayırıq.

**Muxtar MƏMMƏDOV**

# AMEA Naxçıvan Bölməsində ekspedisiyaların yekununa həsr olunan tədbir keçirilib

*AMEA Naxçıvan Bölməsində "Naxçıvanda arxeoloji araşdırmalar" adlı tədbirdə bölmənin sədri, akademik İsmayıl Hacıyev Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dəstəyi ilə 2006-cı ildən ərazidə aparılan genişmiqyaslı tədqiqatlardan bəhs edərək bildirib ki, bu il bölgənin müxtəlif ərazilərində 2 beynəlxalq, 3 respublika əhəmiyyətli ekspedisiya həyata keçirilib.*



Akademik bölmənin arxeoloji ekspedisiyasının Fransa Milli Elmi Araşdırmalar Mərkəzinin arxeoloqları ilə birgə bölgənin müxtəlif ərazilərində qazıntılar apardığını, tədqiqatlar zamanı çox sayda maddi-mədəniyyət nümunələrinin aşkar olunduğunu və bu nümunələrin Naxçıvan ərazisi ilə bağlı qaranlıq məsələlərin həllində mühüm rol oynayacağını deyib. İsmayıl Hacıyev bu il Amerika Birləşmiş Ştatlarının arxeoloqları tərəfindən muxtar respublika ərazisində ongünlük kəşfiyyat xarakterli ekspedisiyaların da aparıldığını bildirib.

Tədbirdə Azərbaycan və Fransa Beynəlxalq Arxeoloji ekspedisiya layihəsinin Beynəlxalq ekspedisiya rəhbəri, Fransa Milli Elmi Araşdırmalar Mərkəzinin əməkdaşı Katerina Marro çıxış edərək Uçan ağıl, Şorsu, I Kültəpə yaşayış yerlərində aşkar olunan təbəqələrdən ətraflı danışıb. O, araşdırmaların çox maraqlı nəticələri olduğunu xüsusi vurğulayaraq bildirib ki, qazıntılar zamanı keramika məmulatları, heyvan sümükləri, ocaq yerləri və aşkar olunan digər maddi-mədəniyyət nümunələri Naxçıvanın qədim tarixə malik olduğunu bir daha təsdiq edir.

Sonra bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Qədim dövr arxeologiyası şöbəsinin müdiri, Naxçıvan şəhər arxeoloji ekspedisiyasının rəhbəri Vəli Baxşəliyev Naxçıvan şəhərində, I Kültəpə və onun ətrafında olan Uzunoba, Yeni yol, Uçan ağıl və digər qədim yaşayış yerlərində araşdırmalar zamanı tapılan maddi-mədəniyyət nümunələrindən danışıb. O diqqətə çatdırıb ki, abidələrin yaşı karbon analizi üsulu ilə təyin edilir və xüsusi aparatlar vasitəsilə xəritələşdirilir. Ekspedisiyanın rəhbəri qeyd edib ki, aparılan arxeoloji qazıntılarla bağlı məlumatların geniş ictimaiyyətin diqqətinə çatdırılması üçün müxtəlif vaxtlarda 20-dən artıq internet saytına, o cümlədən digər kütləvi informasiya vasitələrinə materiallar təqdim edilib.

Alim arxeoloji tədqiqatların aparılmasına hərtərəfli şərait yaradan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Daha sonra bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Arxeoloji xidmət şöbəsinin müdiri, ekspedisiyanın üzvü, dosent Zeynəb Quliyeva çıxış edərək arxeoloji ekspedisiya heyətinə gələcəkdə arxeoloqlarla bərabər, botaniklərin, bioloqların, zooloqların cəlb olunması təklifini irəli sürüb. O qeyd edib ki, ərazidə aşkar olunan heyvan sümüklərinin mütəxəssislər tərəfindən yerində incələnməsi daha məqsədəuyğun olar.

Tədbirdə AMEA-nın müxbir üzvləri – bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru Fəxrəddin Səfərli və İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru Əbülfəz Quliyev çıxış edərək Naxçıvan ərazisində aparılan araşdırmaları, çoxsaylı tədqiqatları yüksək qiymətləndiriblər.

Sonda sözügedən qədim yaşayış yerlərində tədqiqat zamanı aşkar olunan maddi-mədəniyyət nümunələrinin videogörüntüsü nümayiş edilib.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

# Milli Musiqi Günü ilə bağlı konsert proqramları təşkil edilib



Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin 18 sentyabr – Milli Musiqi Günü ilə bağlı təsdiq etdiyi tədbirlər qrafikinə uyğun olaraq muxtar respublikanın paytaxtında və rayon mərkəzlərində, o cümlədən uşaq musiqi, incəsənət, bədii sənətkarlıq məktəblərində konsertlər təşkil olunur. Eyni zamanda Milli Musiqi Günü ilə bağlı dahi bəstəkar Üzeyir Hacıbəylinin həyat və yaradıcılığından bəhs edən "Uzun ömrün akkordları" bədii filminin və musiqimizlə bağlı sənədli filmlərin nümayiş etdirilməsi, musiqi tariximizlə bağlı mühazirələrin oxunması nəzərdə tutulub.

Bu çərçivədə sentyabrın 11-də Naxçıvan Dövlət Filarmoniyasının Kamera Orkestrinin konserti olub.

Konsert dahi bəstəkarımız Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasının "Müqəddimə"sinin ifası ilə başlayıb. Konsertdə Şərqin ilk operası kimi milli musiqimizin incisi sayılan "Leyli və Məcnun" operasından Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Zülfüqar Mahmudov və Hünər Əliyevin Qəribə Həsənova ilə birlikdə ifa etdikləri duetlər alqışlarla qarşılanıb.

Orkestr operadan ərəb mahnısını ifa etdikdən sonra gənc solist İlkin Abdullayevin ifasında dahi bəstəkarımız Üzeyir Hacıbəylinin "Sənsiz" və "Sevgili canan" romansları səslənib.

Böyük sənətkarın opera sənətimizin zirvəsi sayılan "Koroğlu" operasından rəqs və cəngi konsert iştirakçılarında xoş ovqat yaradıb. Əbədiyaşar sənət nümunəsi olan "Koroğlu" operasından İlkin Abdullayevin, Qəribə Həsənovanın və Azərbaycan Respublikasının Əməkdar artisti Gülyanaq Fərzəliyevanın ifalarında səslənən ariya və mahnılar bəstəkarın ölməz musiqisinin gözəl nümunələri kimi alqışlarla qarşılanıb.

Azərbaycan Respublikasının Əməkdar artistləri Gülyanaq Fərzəliyeva və Mübariz Əsgərov isə "Koroğlu" operasının final hissəsini konsertin iştirakçılarına təqdim ediblər. Dünya operasının incilərindən sayılan "Koroğlu"dan ifa olunan nümunələr emosionallığı, obrazlılığı, intonasiya ifadəliliyi ilə diqqəti cəlb edib.

Konsert böyük bəstəkarımız Müslüm Maqomayevin "Şah İsmayıl" operasının müqəddiməsi ilə başa çatıb.

Qeyd edək ki, ötən şənbə günü ilk olaraq Naxçıvan şəhərindəki "Böyük bağ" İstirahət Parkında Naxçıvan Dövlət Filarmoniyasının Muğam Studiyasının konserti təşkil olunub. Dünən isə Kəngərli rayonunda Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin "Şəlalə" İnstrumental Ansamblı konsert proqramı ilə çıxış edib.

**Əli RZAYEV**

*Xalq təbabəti*

# Min dərd varsa, min bir də dərman var

***Elmin başqa sahələri kimi, tibb də məhz Şərqdən Avropaya yayılıb. VII əsrdən başlayaraq xalq təbabətini ərəblər inkişaf etdirməyə başlayıblar. Bir neçə əsr ərzində ərəblərin öyrəndiyi 2600 dərman maddəsindən 1400-ü bitki mənşəli idi. Orta əsrlərdə xalq təbabətinin inkişafında Şərqin məşhur alimi Əbu Əli ibn Sinanın çox böyük xidmətləri olub. O, çox sayda dərman bitkisini öyrənib, onların müxtəlif xəstəliklərin müalicəsində müsbət rolunu göstərib. Bu istiqamətdə onun "Tibb elmləri qanunu" adlı kitabı olduqca əhəmiyyətlidir.***

Orta əsrlərdən etibarən Azərbaycanda da xalq təbabəti sürətlə inkişaf etməyə başlayır. Azərbaycan təbabətinin ozamankı görkəmli nümayəndələrindən Həsən ibn Şirvani, Əbu Mənsur Muvəffəqi, İbrahim ibn Zeynalabdin Naxçıvani və başqalarının adını çəkmək olar. İlk dərmanşünaslığa dair əsər Əbu Mənsura aiddir. Əsərdə 446 bitki, 44 heyvan mənşəli dərman maddələri ətraflı təsvir edilib.

Hazırda elmi təbabət xalq təbabətinin bütün sirlərini ətraflı öyrənir və onun zəngin dərman xəzinəsindən elmi əsaslarla səmərəli istifadə etmək imkanlarını tədqiq edir. Bəs günümüzdə xalq təbabətindən, yaxud da tərkibində təbii vasitələr olan dərman preparatlarından istifadə hansı səviyyədədir?

Çoxumuz şahidiyik ki, bu gün təbii vasitələrdən istifadə edənlər az deyil. Hətta bəziləri sırf lazımi bitki olmasa belə, tərkibində həmin ot, yaxud da başqa təbii vasitə olan dərman preparatlarından alırlar. Amma unutmayaq ki, dərman bitkilərindən istifadə edərkən diqqətli olmaq lazımdır. Onlardan bəziləri, xüsusilə də bu bitkilər qarışıq istifadə edildikdə orqanizmə ciddi zərər verə bilər. Məsələn, insanlarda həmin vasitələrə qarşı allergiya yarana bilər. Bu zaman xəstə onlardan istifadəni mütləq dayandırmalıdır. Düzdür, təbiətin möcüzələrinin hər biri min bir dərdə davadır. Ancaq hansı bitkidən nə üçün istifadə edildiyini yaxşı bilməli, sonra ondan istifadə olunmalıdır.

Xalq təbabətində istifadə olunan, Naxçıvan Muxtar Respublikasında geniş yayılmış təbii dərman vasitələri haqqında məlumat almaq üçün Naxçıvan Dövlət Universitetinin Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin Botanika kafedrasının müdiri, dosent Musa Piriyevə müraciət etdik. O bildirdi ki, Azərbaycanda 13, muxtar respublikamızda 8 növü olan zəncirotu bitkisindən təbabətdə geniş istifadə edilir. Onun yarpaq və otunun şirəsindən iyunda, kökündən isə erkən yazda və payızın sonunda istifadə olunur. Kökünün dəmləməsi qaraciyər və öd yolları xəstəliklərində, şişlərdə, assit, böyrəkdaşının, yarpaqlarının dəmləməsi isə səpgilərdə, sızanaqların müalicəsində təsirli dərman vasitəsidir. O, eyni zamanda Çin xalq təbabətində hərarətsalıcı, tərlədici, ümumi möhkəmləndirici, iştahartırıcı, limfa düyünlərinin iltihabında, furunkulyoz və digər dəri xəstəliklərinə müalicəvi təsir etməklə yanaşı, ilan zəhərini neytrallaşdırmaq qabiliyyətinə də malikdir.

Tərkibində iltihabsorucu, öskürəkkəsici, tərqovucu maddələr olan dəvədabanından təbabətdə yanıq əleyhinə maddə kimi də istifadə edilir. Onun yarpaq və çiçəklərinin dəmləməsi soyuqdəymədə öskürəkkəsici və tərlədici kimi istifadə edilir. O, eyni zamanda kəskin və xroniki yuxarı tənəffüs yollarının – bronxit, bronxial-astma və qrip xəstəliklərinin müalicəsi üçün də faydalıdır.

Qaraqovaq adlı bitkinin müalicə məqsədilə yarpağından və eləcə də qabığından istifadə edilir. Böyrək xəstəliklərində onun qatranı çıxarılaraq cövhər hazırlanır ki, göbələk xəstəliklərində, dəri yaralarında, yanıqlarda, bağırsaq çatlarında, çibanlarda həmin qovaq məlhəmi müalicəvi təsir göstərir.




Təbabətdə geniş istifadə edilən digər bir məhsul isə cəvizdir. Onun yarpaqlarından limfa vəzilərinin iltihabının, dəri vərəminin, iltihablı yaraların sağaldılmasında, həzm prosesinin yaxşılaşdırılmasında istifadə edilir. O, bakteriosid xüsusiyyətə malik olmaqla yanaşı, parazit qurd əleyhinə, şəkərli diabet xəstəliyində, qan damarlarının genişləndirilməsində də müalicəvi əhəmiyyətə malikdir. Onun meyvəsi balla qarışdırılıb vərəm xəstəliyinin, qastrit, mədə xorasının müalicəsində işlədilir.

Qumluq solmazçiçəyi xalq təbabətində qastrit, kolit, qaraciyər çatışmazlıqlarında ödqovucu və öddaşı xəstəliyində tətbiq edilir. Solmazçiçəyinin ekstraktı öd yolunun kiçik konkrimentlərinin parçalanaraq düşməsində istifadə olunur.

Musa Piriyevin sözlərinə görə, muxtar respublikanın dağlıq ərazilərində, seyrək meşələrində, kolluqlarda və çay vadilərində, alaq otları ilə birlikdə yol kənarlarında, meşə zolaqlarında və təzə salınmış bağlarda geniş yayılmış acı yovşandan da təbabətdə istifadə edilir. Belə ki, onun tərkibində olan acı maddə iştahanı artırır, enerjini bərpa edir. Bitkinin çiçəkləri mədə-bağırsaq sisteminin fəaliyyətini gücləndirir. Yovşan, eyni zamanda mədəaltı vəzin funksiyalarını da stimullaşdırır. O, mərkəzi sinir sisteminin və qanyaradıcı orqanların fəaliyyətini artırır, zəiflik, anemiya və epilepsiya xəstəliklərinin müalicəsinə də kömək edir. Tərkibində hərarətsalıcı və öskürəkkəsici maddələr olduğundan temperaturla müşayiət olunan qrip, malyariya və kəskin respirator xəstəliklərin profilaktika və müalicəsində əvəzsiz sayılır.

Təbib Əbu Əli ibn Sina üzərliyi soyuqdəymə və yorğunluğu aradan qaldıran dərman bitkisi kimi tanıdırdı. Əfqanıstanda üzərlik otundan hazırlanmış məhsulla ən kəsərli dezinfeksiyalar aparılır. Üzərliyin toxumları qara üzümlə əzilib qarışdırılır və alınan məlhəm diş ağrısını sakitləşdirmək üçün istifadə edilir. Bu bitki qrip xəstəlikləri, əsəb yorğunluğu, mədə-bağırsaq pozğunluğu zamanı da faydalıdır. Hətta onun köklərindən hazırlanan dərmanla uşaqlarda baş verən qıcolmanı müalicə edirlər.

Müsahibim onu da vurğuladı ki, təbabətdə istifadə edilən yüzlərlə bitkinin adını çəkmək olar. Şübhəsiz ki, ta keçmişdən dədə-babalarımız onların faydasını görməsəydi, nəsildən-nəslə keçirərək bu günümüzə gətirməzdi.

Çobanyastığı, kəklikotu, şahtərə, qaraçörəkotu, əməköməci, dəvədabanı, yarpız, əvəlik və sair kimi otlar digərlərinə nisbətdə daha çox istifadə edilir. Bu müalicəvi əhəmiyyətli otların yığılma vaxtı əhali onları toplayır, hələ qışa da tədarük görür.

Elə Ordubad rayonunda yaşayan Xədicə nənə ilə də bu mövzuda həmsöhbət olduq. O bildirdi ki, hər il bacardığı qədər bu şəfalı bitkilərdən yığır. Bədən nahiyəsində olan bütün ağrılara bu bitkilərlə əlac tapan Xədicə nənə onu da qeyd etdi ki, bitkilərin yığımında son dərəcə ehtiyatla davranır, sonrakı illərdə də ehtiyac duyacağımız bu otların kökünün kəsilməməsinə çalışır.

Ümumiyyətlə, dərman bitkilərinin toplanması, qurudulması və saxlanılması kortəbii şəkildə deyil, müəyyən qaydalar gözlənilməklə aparılmalıdır. Əgər dərman bitkinin meyvəsindən alınırsa, onu yetişəndən sonra, yarpağından alınırsa, onu quruyub saralmamışdan əvvəl, güllərindən alınırsa, onu tam açılandan sonra yığmaq məsləhətdir.

Toxumla çoxalan birillik bitkiləri toplayarkən toxumun yayılması üçün bir hissəsini saxlamaq lazımdır. Kökündən çoxalan bitkiləri toplayarkən isə kökünə zərər vurmadan yerüstü hissəni tam qopartmaq olar. Bitkiləri quru havada toplamaq lazımdır, çünki nəm halda bitki yavaş-yavaş quruyur, bu da onun tərkibinin və rənginin dəyişməsinə səbəb olur. Yarpaqları tam inkişaf etmiş, yaşıl və zədəsiz halda yığmaq lazımdır. Qırxbuğum, pişikotu, çobanyastığı, kəklikotu, dəvədabanı və sair kimi bitkilər min bir dərdin dərmanı olduqları kimi, onların hər birinin yığılma ayları və üsulları da müxtəlifdir.

Muxtar respublikamızda dərman məhsullarının istehsalı ilə məşğul olan müəssisə fəaliyyət göstərir. 2010-cu ildən Şahbuz rayonunda yaradılan "Farma Şah" adlandırılan bu müəssisə Şahbuz dağlarında yabanı halda bitən qiymətli dərman bitkilərinin emalı və paketlənməsi ilə məşğuldur. Burada istehsal olunan dərman məmulatlarının muxtar respublikadan kənarda da satışı həyata keçirilir.

"Min dərd varsa, min bir də dərman var", – deyən ulularımız ta qədim zamandan öz azar-bezarlarını bitkilərdən hazırladıqları dərmanlarla müalicə ediblər. Buna baxmayaraq, bir bitkidən istifadə etməzdən əvvəl onun müalicəvi əhəmiyyəti barədə dəqiq və dolğun məlumatlara yiyələnməliyik. Ondan istifadə isə yalnız bu mərhələdən sonra baş tutmalıdır. İxtisaslı bir həkimin məsləhəti ilə istifadə zəruridir. Bəzi insanlar isə, ümumiyyətlə, müalicəvi əhəmiyyətindən xəbərsiz, ağızdan-ağıza keçən söhbətlərə əsaslanaraq onlardan istifadə edirlər.

*Unutmayaq, sağlamlıq Tanrının insanlara verdiyi ən böyük hədiyyədir və hər bir insanın sağlamlığı onun öz əlindədir. Söhbət sağlamlıqdan gedirsə, yüz ölçüb, bir biçmək lazımdır.*

**Fatma BABAYEVA**

*Ölkəmizin iqtisadi potensialının sürətlə artması və regionların inkişafı müasir texniki-peşə təhsili qarşısında yeni tələblər qoyur.*

## Qazanxana maşinisti ixtisası üzrə kurslar təşkil olunub

Naxçıvan Muxtar Respublikasında da hazırda əmək bazarında ixtisaslı kadrlara yaranan tələbatın ödənilməsində peşə təhsili müəssisələrinin böyük rolu var. Xüsusilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nda qarşıya qoyulan vəzifələrin icrası istiqamətində tədbirlərin həyata keçirilməsi texniki-peşə təhsili müəssisələrinin fəaliyyətini daha da genişləndirib. Buna görədir ki, hər il bu təhsil ocaqlarında əmək bazarının tələbatına uyğun olaraq müxtəlif ixtisaslar üzrə kurslar təşkil olunur.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyindən verilən məlumata görə, sentyabrın 5-dən nazirliyin tabeliyində fəaliyyət göstərən Şərur və Ordubad Texniki-Peşə və Sürücülük məktəblərində, eyni zamanda Naxçıvan Şəhər Peşə Liseyində qazanxana maşinisti ixtisası üzrə kurslar təşkil olunub. Adıçəkilən təhsil müəssisələrinin hər birində 18 nəfər bu ixtisasa yiyələnməklə, sonda test imtahanına cəlb ediləcək sertifikat alacaq. Kurs müddətində müdavimlər həm nəzəri, həm də praktik metodlarla cəlb olunduqları peşənin sirlərinə yiyələnəcəklər. Təhsil müddəti bir aydır. Bu həftədən başlayaraq həmin peşə təhsili müəssisələrində gözətçi kursları başlanılacaq.

**Xəbərlər şöbəsi**

## Şəhər və kənd komandaları arasında keçirilən futbol birinciliyinə yekun vurulub

Gənclərin idmana cəlbi istiqamətində görülən tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, şəhər və rayon gənclər və idman idarələrinin təşkilatçılığı ilə gənclərdən ibarət kənd komandaları arasında futbol üzrə şəhər və rayon birinciliyində final görüşləri keçirilib.



Şərur rayon Aralıq kənd stadionunda keçirilən həlledici qarşılaşmada Mahmudkənd və Çərçiboğan kənd komandaları üz-üzə gəlib. Daha inamlı oyun göstərən çərçiboğanlılar meydanı 6:2 hesablı qələbə ilə tərk edib və yarışın qalibi adını qazanıb. Mahmudkənd komandası ikinci, Dizə kənd komandası isə üçüncü olub.

10 komandanın heyətində 250-yə yaxın futbolçunun mübarizə apardığı Culfa rayon birinciliyinin final görüşündə Ərəzin və Bənəniyar kənd komandaları qarşılaşıblar. Culfa şəhər mərkəzi stadionunda keçirilən görüşdə Ərəzin kənd komandası 3:2 hesabı ilə qalib gəlib və birinciliyin baş mükafatını qazanıb.

Babək rayon Vayxır kənd stadionunda keçirilən həlledici qarşılaşmada Babək qəsəbə komandası ilə Nehrəm kənd komandası üz-üzə gəlib. Gərgin keçən görüş birincilərin minimal hesablı qələbəsi ilə yekunlaşıb – 1:0.

Bununla da, iyun ayının 22-də start verilən birinciliyin qaliblərinin adları məlum olub. Bu final görüşlərinə kimi isə Sədərək rayonunda Sədərək kənd komandası, Şahbuz rayonunda Kolanı kənd komandası, Ordubad rayonunda Sabirkənd komandası, Kəngərli rayonunda Qıvraq qəsəbə komandası və Naxçıvan şəhərində Qaraçuq kənd komandası bütün rəqiblərini üstələməyi bacarıb.

Sonda hər rayon üzrə ilk 3 pilləni tutan komandalara Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun kubok və hədiyyələri təqdim edilib.

## Voleybol üzrə rayon birinciliyinə start verilib

Culfa Rayon Gənclər və İdman İdarəsi ilə Naxçıvan Muxtar Respublikası Voleybol Federasiyasının Culfa rayon bölməsinin birgə təşkil etdiyi şəhər və kənd komandaları arasında "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında kişilər arasında voleybol üzrə rayon birinciliyinə start verilib.

Yarış əsasnaməyə uyğun olaraq iki yarımqrupda olimpiya sistemi üzrə müvafiq olaraq Əbrəqunus və Culfa şəhər 3 nömrəli tam orta məktəblərin idman zallarında keçirilir. Birincilikdə 12 komandanın heyətində 144 idmançı mübarizə aparır.

İlk olaraq Əbrəqunus kənd tam orta məktəbinin idman zalında Əbrəqunus və Bənəniyar kənd komandaları qarşılaşıblar. Görüşdən öncə rayon Gənclər və İdman İdarəsinin əməkdaşı Elçin Cəfərov, Voleybol Federasiyasının Culfa rayon bölməsinin sədr müavini Elməddin Qəribov çıxış edərək keçirilən tədbirlərin mahiyyətindən, yeniyetmə və gənclərə göstərilən diqqət və qayğıdan, idmanda əldə olunan ən son nailiyyətlərdən və federasiyaların qarşısına qoyulan vəzifələr və bu sahədə görülən işlər haqqında tədbir iştirakçılarına geniş məlumat veriblər. Çıxışlardan sonra oyunun baş hakimi Afrəddin Cəfərov oyunun qaydaları haqqında idmançıları məlumatlandırıb.

Gərgin mübarizə şəraitində keçirilən görüşdə qalib gələn Bənəniyar kənd komandası növbəti mərhələyə yüksəlib.

**Ceyhun MƏMMƏDOV**

### İtmişdir

Həsənov Rəşad Mikayıl oğlunun adına olan ümumvətəndaşlıq pasportu itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, "İstiqlal" küçəsi, bina 73, mənzil 47-də yaşayan Qulubəyova Ayalı Hidayət qızının adına olan 9414 inventar nömrəli texniki pasport və MH-0028743 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

* * *

İbrahimov Səfər Əjdər oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 721